## "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən tikinti işlərinin dayandırılması haqqında Qaydalar"ın təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasında tikinti sahəsində dövlət nəzarətinin güclən-dirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 30 avqust tarixli 624 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən tikinti işlərinin dayandırılması haqqında Qaydalar" təsdiq edilsin (əlavə olunur).

2. Yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, fəaliyyət göstərdikləri ərazi vahidlərinin hüdudlarında istifadə edilmiş konstruktiv elementlərin yükdaşıma qabiliyyəti pozulmaqla aparılan əsaslı təmir, yenidənqurma və bərpa işləri barədə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinə dərhal məlumat versinlər.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 4 oktyabr 2007-ci il
№ 154

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2007-ci il 4 oktyabr tarixli 154 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən tikinti işlərinin dayandırılması haqqında

## QAYDALAR

### I. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 aprel tarixli 394 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnamə"yə və 2006-cı il 29 dekabr tarixli 511 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi haqqında Əsasnamə"yə uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Qaydalar Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi (bundan sonra - Dövlət Agentliyi) tərəfindən I və II

məsuliyyət səviyyəli bina və qurğuların1[*] (12 metr hündürlüyədək fərdi yaşayış və bağ evləri istisna olmaqla) tikintisində tikinti norma və qaydalarına, müvafiq qaydada təsdiq edilmiş layihə sənədlərinə və normativ hüquqi aktların tələblərinə riayət edilməməsi nəticəsində yol verilmiş pozuntuların qarşısının alınması və aradan qaldırılması məqsədilə tikinti işlərinin dayandırılması mexanizmini müəyyən edir.

1.3. Tikinti işlərinin dayandırılmasında məqsəd tikinti, əsaslı təmir, yenidənqurma və bərpa işləri zamanı tikintini aparan sifarişçilər və tikinti işlərini yerinə yetirən şəxslər (podratçılar) tərəfindən tikinti norma və qaydalarına riayət olunmasını təmin etmək, yol verilmiş pozuntuların aradan qaldırılması üçün müvafiq tədbirləri həyata keçirmək, insanların həyatı, sağlamlığı və əmlakı üçün potensial təhlükə yarada biləcək tikinti işlərinin qarşısını vaxtında almaq və yüksək tikinti mədəniyyətini formalaşdırmaqdan ibarətdir.

1.4. Bu Qaydaların tətbiqi tikinti işlərinin dayandırılması üzrə digər dövlət orqanlarının qüvvədə olan qanunvericilik aktları ilə müəyyən edilmiş səlahiyyətlərin icrasını istisna etmir.

## II. TİKİNTİ İŞLƏRİNİN DAYANDIRILMASI

2.1. Müəyyən edilmiş qaydada keçirilmiş nəzarət tədbirləri nəticəsində aşağıda göstərilən hallar aşkar edildikdə tikinti işləri dayandırılır:

2.1.1. tikinti işlərinin aparılmasına icazə sənədlərinin, o cümlədən xüsusi razılığın (lisenziyanın) olmaması;

2.1.2. Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Baş Ekspertiza İdarəsinin tikintinin layihəsinə rəyinin olmaması;

2.1.3. tikintidə keyfiyyət göstəriciləri müvafiq normativ sənədlərin tələblərinə uyğun olmayan və ya bu sənədlərə uyğunluğunu təsdiq edən sertifikata malik olmayan tikinti materiallarından istifadə edilməsi;

2.1.4. tikinti işlərinin yerinə yetirilməsi zamanı tikinti norma və qaydalarının pozulması;

2.1.5. tikintinin layihə sənədlərindən kənara çıxmalarla həyata keçirilməsi.

---

1[*] I məsuliyyət səviyyəli bina və qurğulara dağıntısı və ya məhv olması zamanı ölkəyə böyük iqtisadi, sosial və ekoloji ziyan vuran bina və qurğular (Su və İstilik Elektrik Stansiyaları, həcmi 10 milyon kub metr və daha çox olan su anbarları, tutumu 10000 kub metr və daha çox olan neft və neft məhsulları saxlayan çənlər, qaz anbarları, neft və neft məhsulları, qaz, su, çirkab suyu nəql edən magistral boru kəmərləri, iki və daha artıq mərtəbəli təhsil və səhiyyə obyektləri, tribunalı idman qurğuları, konsert-sərgi salonları, kinoteatrlar, teatrlar, muzeylər, dövlət arxivləri, doqquz və daha artıq mərtəbəli yaşayış evləri və inzibati binalar, şadlıq sarayları, örtülü bazarlar və ticarət mərkəzləri, insanların kütləvi şəkildə toplandığı digər obyektlər, metropoliten xətləri və stansiyaları, uzunluğu 50 metr və daha artıq olan körpülər və yol ötürücüləri, hündürlüyü 100 metr və daha artıq olan tüstü boruları və rabitə qurğuları, aşırımı 24 metr və daha artıq olan üstüörtülü istehsalat obyektləri, yanacaqdoldurma məntəqələri) və həmçinin nadir (unikal) binalar və qurğular, tarix və memarlıq abidələri, II məsuliyyət səviyyəli bina və qurğulara isə I məsuliyyət səviyyəli bina və qurğulara daxil edilməmiş üç və daha artıq mərtəbəli yaşayış evləri, təhsil və səhiyyə obyektləri, mədəni-məişət, sosial və infrastruktur təyinatlı obyektlər, istehsalat, kənd təsərrüfatı və iqtisadiyyatın digər sahələri üzrə binalar və qurğular aiddir.

2.2. Tikinti obyektlərində tikinti işlərinin yerinə yetirilməsinin bütün mərhələlərində bu Qaydaların 2.1-ci bəndində qeyd olunan tələblərə riayət edilməsinə nəzarət bilavasitə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Baş Dövlət Tikinti Müfəttişliyinin (bundan sonra - Baş Dövlət Tikinti Müfəttişliyi) tikinti müfəttişləri tərəfindən həyata keçirilir.

Tikinti müfəttişləri tikintidə sifarişçi tərəfindən texniki, layihəçi müəllif və podratçı tərəfindən daxili əməliyyat nəzarətinin aparılmasında qüvvədə olan qanunvericiliyin tələblərinə riayət edilməsinə də nəzarət edirlər.

2.3. Tikinti müfəttişi tikinti obyektinin sənədlərini, obyektdə tikinti norma və qaydalarına əməl edilməsini, istifadə edilən tikinti materialları, avadanlıqları və konstruksiyalarının standartlara uyğunluğunu təsdiq edən sənədləri yoxlayaraq, tikintiyə texniki baxış blankında müvafiq qeydlər aparır və imzalayaraq Baş Dövlət Tikinti Müfəttişliyinə təhvil verir.

2.4. Baş Dövlət Tikinti Müfəttişliyi təqdim edilmiş texniki baxış blankında göstərilən məlumatlar əsasında tikinti obyektində aşkar edilmiş pozuntuların aradan qaldırılması məqsədilə "Tapşırıq" verir.

"Tapşırıq" tikinti obyektində tərtib olunmuş texniki baxış blankındakı məlumatların və tikintiyə aid digər məlumatların təhlili əsasında Baş Dövlət Tikinti Müfəttişliyi tərəfindən tərtib olunur.

2.5. "Tapşırıq" - tikinti müfəttişi tərəfindən verilmiş məlumatlar əsasında tikinti obyektində aşkar edilmiş pozuntuları və onların aradan qaldırılması üçün verilən göstərişləri özündə əks etdirən xüsusi mühafizə nişanlan olan və icrası məcburi olan sənəddir.

Aşkar edilmiş pozuntuların xarakterindən asılı olaraq "Tapşırıq"da onların aradan qaldırılması üçün konkret müddət müəyyən edilir.

"Tapşırıq" Dövlət Agentliyinin rəisi və Baş Dövlət Tikinti Müfəttişliyinin rəisi tərəfindən imzalanır və Dövlət Agentliyinin möhürü ilə təsdiq edilir.

İmzalanmış "Tapşırıq" Baş Dövlət Tikinti Müfəttişliyində qeydiyyata alınır.

2.6. "Tapşırıq" təsdiq edildikdən sonra tikintidə texniki baxış keçirmiş tikinti müfəttişi tərəfindən təxirə salınmadan tikinti obyektinin məsul şəxsinə təqdim edilir və həmin məsul şəxs "Tapşırığ"ı qəbul edib surətində onu icraata qəbul etməsi barədə imza edir.

"Tapşırığ"ın qəbul edilməsindən imtina edildikdə, imtina barədə müvafiq akt tərtib edilir və "Tapşırıq"la birlikdə Baş Dövlət Tikinti Müfəttişliyinə təhvil verilir.

İcra üçün qəbul olunmuş "Tapşırıq"ların imzalanmış surətləri, qəbul edilməmiş "Tapşırıq"lar və tərtib edilmiş aktlar Baş Dövlət Tikinti Müfəttişliyində saxlanılır.

2.7. "Tapşırığ"ın ünvanlandığı şəxs müəyyən edilmiş müddətdə "Tapşırıq"da əks edilmiş pozuntuların aradan qaldırılması haqqında görülmüş tədbirlər barədə Baş Dövlət Tikinti Müfəttişliyinə yazılı məlumat verməlidir.

Baş Dövlət Tikinti Müfəttişliyi həmin məlumat əsasında "Tapşırıq"da göstərilən pozuntuların aradan qaldırılmasını yoxlayır və pozuntular aradan qaldırıldıqda həmin "Tapşırığ"ın icrasına xitam verir.

2.8. "Tapşırıq"da göstərilən pozuntuların aradan qaldırılması ilə bağlı işlər pozuntulara yol vermiş şəxslərin maliyyə vəsaitləri hesabına aparılır.

2.9. "Tapşırığ"ın qəbul edilməsindən imtina edildikdə və ya "Tapşırıq"da göstərilən pozuntular aradan qaldırılmadıqda, Baş Dövlət Tikinti Müfəttişliyi müvafiq tədbirlərin görülməsi üçün təkliflərini Dövlət Agentliyinə təqdim edir.

2.10. Baş Dövlət Tikinti Müfəttişliyinin məlumatı əsasında Dövlət Agentliyinin rəisi öz əmri ilə tikinti obyektində yoxlama aparılması məqsədilə müvafiq mütəxəssislərdən ibarət geniş tərkibdə Komissiya yaradır.

2.11. Dövlət Agentliyi yoxlamanın başlanmasından 2 gün əvvəl sifarişçiləri və tikinti işlərini yerinə yetirən şəxsləri (podratçıları) tikinti obyektində yoxlama başlanması vaxtı haqqında

məlumatlandırır və Komissiyanın işlədiyi müddətdə tikinti işlərinin dayandırılması haqqında yazılı göstəriş verir.

2.12. Komissiya yoxlamanı başa çatdırdıqdan sonra müvafiq akt tərtib edir və həmin aktı yekun qərarın qəbul edilməsi üçün Dövlət Agentliyinə təqdim edir.

2.13. Komissiya tərəfindən tərtib edilmiş akt əsasında Dövlət Agentliyinin rəisi komissiya tərəfindən aradan qaldırılması tövsiyə edilmiş pozuntular aradan qaldırılana qədər tikinti işlərinin dayandırılması haqqında əsaslandırılmış qərar qəbul edir.

Tikinti işlərinin dayandırılması haqqında qərar əmrlə rəsmiləşdirilir.

Komissiya həmin tikinti obyektinin tam və ya qismən sökülməsini tövsiyə etdiyi halda, Dövlət Agentliyi tərəfindən tikinti işləri dərhal dayandırılır və məhkəmə qarşısında müvafiq iddia qaldırılır.

2.14. Tikinti işlərinin dayandırılması haqqında əmr imzalandıqdan sonra dərhal tikinti obyektinin məsul şəxsinə təqdim edilir və həmin şəxs əmri qəbul etməsi haqqında onun surətində tarixi göstərilməklə imza edir. Əmrin qəbul edilməsindən imtina edildikdə, imtina barədə müvafiq akt tərtib edilir.

2.15. Tikinti işlərinin dayandırılmasını təmin etmək məqsədilə Dövlət Agentliyinin tikinti işlərinin dayandırılması haqqında əmrinin surəti müvafiq təchizatın dərhal dayandırılması üçün elektrik enerjisi və su təchizatı ilə məşğul olan qurumlara, yerli icra hakimiyyəti orqanlarına və ictimai asayişin qorunması ilə bağlı zərurət yarandığı hallarda, yerli polis orqanlarına göndərilir.

2.16. Dövlət Agentliyi rəisinin əmrinin surəti alındığı gündən tikinti obyektini elektrik enerjisi və su ilə təchiz edən müvafiq qurumlar həmin tikinti obyektinin elektrik enerjisi və su ilə təchizatdan ayrılmasını dərhal təmin etməli və bu barədə Dövlət Agentliyinə yazılı məlumat verməlidirlər.

## III. MƏSULİYYƏT[i][1]

3.1. Dövlət Agentliyinin tikinti işlərinin dayandırılması ilə bağlı qərarını icra etməyən şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

3.2. Dövlət Agentliyinin tikinti işlərinin dayandırılması ilə bağlı qərarından inzibati qaydada və (və ya) məhkəməyə şikayət verilə bilər.

Dövlət Agentliyinin tikinti işlərinin dayandırılması ilə bağlı qərarından inzibati qaydada və (və ya) məhkəmə qaydasında şikayət verilməsi həmin qərarın icrasını dayandırmır.

3.3. Qanunvericiliklə müəyyən olunmuş qaydaların pozulması ilə aparılan tikinti işlərinin qarşısının alınmamasına, o cümlədən dayandırılmamasına görə vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 16 yanvar 2008-ci il tarixli 6 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 1, maddə 39**)


## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

i[1] 16 yanvar 2008-ci il tarixli 6 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 1, maddə 39**) ilə «Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən tikinti işlərinin dayandırılması haqqında Qaydalar»ın 3.2-ci bəndinin birinci abzasında «**məhkəməyə**» sözündən əvvəl «**inzibati qaydada və (və ya)**» sözləri, ikinci abzasında «**məhkəmə**» sözündən əvvəl «**inzibati qaydada və (və ya)**» sözləri əlavə edilmişdir.